# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 46

Bakı şəhəri „03" iyun 2014-cü il

**"Respublikanın əhalisinə göstərilən mama-ginekoloji xidmətin gücləndirilməsi barədə"**

Respublikanın əhalisinə mama-ginekoloji xidmətin təşkili və göstərilməsi işində ərazi tibb müəssisələrinə praktiki kömək göstərilməsi və bu fəaliyyətin gücləndirilməsi məqsədi ilə

## ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru F.Əliyevaya tapşırılsın:

1.1. yüksək ana və körpə ölümü olan ərazilərə diqqət yetirməklə respublikanın şəhər və rayonlarına növbəçilik prinsipi üzrə mütəxəssislərin ezam edilməsi təmin edilsin;

1.2. görülmüş işlər barədə məlumat hər növbəti ayın 5-nədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

2. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, Elmi-tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun büdcəsində ölkədaxili ezamiyyə xərcləri ilə bağlı müvafiq əlavələrin edilməsi təmin edilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**